**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 259**

**Bakı şəhəri, 8 iyun 2018-ci il**

**“Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Statoil Azərbaycan Qarabağ BV və SOCAR QARABAĞ LLSİ arasında Risk Xidmət Sazişi”nə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri barədə**

“Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli 3752 nömrəli Sərəncamına əsasən, 2018-ci il 30 may tarixində imzalanmış “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Statoil Azərbaycan Qarabağ BV və SOCAR QARABAĞ LLSİ arasında Risk Xidmət Sazişi”nə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Statoil Azərbaycan Qarabağ BV və SOCAR QARABAĞ LLSİ arasında Risk Xidmət Sazişi”nin 5-ci əlavəsində qeyd olunmuş “Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri” təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2018-ci il 8 iyun tarixində keçirilmiş iclasın 3 nömrəli protokolu əlavə olunur).

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**